

*Sona Vəliyeva,*
*Milli Televiziya və Radio Şurasının sədr müavini,*
*"Kaspi" qəzetinin təsisçisi*

# Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyasının həyata keçirilməsi və milli mədəniyyətin inkişafı

Məlumdur ki, milli mədəniyyət yalnız milli dövlət daxilində, demokratik şəraitdə inkişaf edə bilər. Çarizmin uzun müddət xalqımızı əsarət altına alması milli şüurumuza, mədəniyyətimizin inkişafına da böyük zərbə vurmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti də məlum səbəblər üzündən, təbiidir ki, milli mədəniyyətin bir çox sahələrində nəzərdə tutulan bütün tədbirləri həyata keçirə bilməmişdi. Daxildə ayrı-ayrı pozucu qüvvələr, o cümlədən Qarabağda və Naxçıvanda erməni quldurları, xaricdə isə Denikin təhlükəsi imkan vermirdi ki, milli hökumət mədəniyyətin inkişafına hərtərəfli diqqət yetirsin. Lakin qısa müddətdə çox iş görülmüşdü. Bu tədbirlərin ən qiymətlisi ana dilinə – türk (Azərbaycan) dilinə dövlət statusu verilməsi, kargüzarlıqda türk dilinin tətbiq edilməsi haqqında 1918-ci il 27 iyun tarixli xüsusi qərar çıxarılması idi... Parlamentdə müzakirələr, dövlət orqanlarında yazışmalar ana dilində aparılırdı. Rus dilindən yalnız müvəqqəti, keçid dövrü üçün istifadə edilirdi. Latın əlifbasına keçmək üçün hazırlığın başlanması da Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf edir.

Xalq Cümhuriyyətinin qurucularının fikrincə, millət elə bir cəmiyyətdir ki, onun birgə ədəbiyyatı, dili, mədəniyyəti vardır. Elə buradan da milli hökumətin öz qarşısına qoyduğu ən mühüm vəzifə məlum olurdu – milli mədəniyyətin bütün sahələrinin ardıcıl və ahəngdar inkişafı.

Milli mədəniyyətin cəmiyyət boyunca yayılması və inkişafı ilk növbədə təhsil siyasəti ilə müəyyən edilirdi. Təhsil siyasətinin əsasında ana dilinin inkişafı proqramı dayanırdı. Hökumətin 28 avqust 1918-ci il qanununa görə, xalq maarifi milliləşdirilmişdi. Yerli idarəetmə orqanları hər vasitə ilə ümumtəhsil məktəblərini genişləndirməyə borclu idilər. 1919-cu ildə ölkədə 23 dövlət orta təhsil müəssisəsi fəaliyyət göstərirdi. Bunlar 6 kişi və 4 qadın gimnaziyası, 5 realnı məktəbi, 3 müəllim seminariyası, 3 qadın təhsil məktəbi, 1 politexnik və ticarət məktəbi olmaqla Bakı, Gəncə, Nuxa, Salyan, Şuşa və Qazaxda fəaliyyət göstərirdi. Milli müəllim kadrları çatışmırdı. Azərbaycan dilində müəllimə böyük ehtiyac olduğu üçün Türkiyədən 50-yə qədər müəllim dəvət olunmuşdu. Bununla yanaşı, milli müəllimlər yetişdirmək üçün Gəncə, Nuxa və Zaqatalada qısamüddətli pedaqoji kurslar təşkil edilib 150 dinləyici qəbul edildi. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü.

Ali məktəb təhsilinin əsası qoyuldu. Qanuna əsasən, ali məktəblərdə təhsil mütləq Azərbaycan dilində aparılmalı idi. 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması millətimizin tarixində olduqca əlamətdar bir hadisə idi. Maliyyə çətinliklərinə baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti Bakı Dövlət Universitetinin təşkilinə, avadanlıqla təchiz edilməsinə 5 milyon manat vəsait ayırmış və 1919-1920-ci tədris illəri ərzində bu ali təhsil müəssisəsinə 10 milyon 858 min manat pul xərcləmişdi. Azərbaycan vətəndaşları tarixdə ilk dəfə doğma dillərində dünyəvi, həm də pulsuz ali təhsil almaq hüququ qazanmışdılar. Bu, əlbəttə, azərbaycançılığın kütləviləşməsi üçün müstəsna əhəmiyyət daşıyan bir tədbir idi.

Xaricdə kadr hazırlığına xüsusi diqqət yetirildi. Qəbul olunmuş qanuna görə, xa-

rici ölkələrə 100 nəfər abituriyent və tələbə göndərilməsi müəyyənləşdirilmişdi. İngiltərəyə 10, İtaliyaya 23, Fransaya 45, Türkiyəyə 9, Rusiyaya 13 nəfər göndərilməsi üçün Maarif Nazirliyi 700 min manat pul ayırmışdı. Həmin tələbələr təhsillərini başa vurduqdan sonra 4 il müddətində hökumətin təyin etdiyi iş yerlərində çalışmalı idilər. Daha 100 nəfər tələbə İstanbula göndərilmək üçün hazırlanırdı. Lakin məlum səbəblər üzündən bu iş yarımçıq qaldı, göndərilənlərin çoxu təhsilini başa vura bilmədi, təhsili bitirənlər isə Azərbaycana qayıtmadılar.

Kütləvi savadsızlığın ləğvi hökumətin qarşısında dayanan başlıca məsələlərdən idi. Savadsızlığın ləğvi məqsədi ilə respublikanın bir çox yerlərində kişi və qadın məktəbləri açılmış, başqa mühüm addımlar atılmışdı. Bakı, Şuşa, Şəki, Zaqatala və Qazaxda yaşlı əhali üçün Azərbaycan dili üzrə axşam kursları açılmışdı. Təhsil sahəsində aparılmış bütün bu inqilabi islahatlar M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" əsərində öz müfəssəl əksini tapmışdır.

Azlıqda qalan millətlərin dillərinə də xüsusi diqqət verilirdi. 1918-ci ilin 7 sentyabrında "Milli azlıqlardan olan xalqların öz ana dilində təhsil alması haqqında" qanun imzalanmışdı. Qanunda göstərildiyinə görə, hər hansı muxtar vilayətdə orta təhsil orada əksəriyyət təşkil edən yerli əhalinin dilində aparılmalı idi. Bundan əlavə, xüsusi olaraq qeyd edilirdi ki, əgər bir məktəbdə azlıqda qalan xalqlardan olan tələbələr 40-a qədər olsa, təhsil onların dilində aparılmalıdır. 1919-cu il oktyabrın 1-dən Dağlıq Qarabağ erməni məktəbləri üzrə xüsusi müfəttişlik yaradılmışdı. Burada ermənilərin maarif və mədəniyyət sahəsində öz müqəddəratlarını təyin etməsini əsaslandıran 13 maddəlik əsasnamə təsdiq edilmişdi. Hətta ayrı-ayrı şəxslərə öz hesabına xüsusi məktəblər açmaq imkanı yaradılmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin ifrat və şovinist millətçilik mövqeyində deyil, məhz mütərəqqi azərbaycançılıq mövqeyində durduğunu sübut edən başqa bir xüsus da o idi ki, ilk parlamentimizin tərkibində digər millətlərin nümayəndələri də fəal iştirak edirdilər. Bu mövzuda R.Mehdiyevin belə bir maraqlı fikri var: "Bu gün azərbaycançılıq milli həyatın, konsessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millət və etnik qrupların qardaşlığı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycan bütövlüyü uğrunda birgə mübarizənin tarixi təcrübəsidir. İdeologiya kimi azərbaycançılıq müstəqil Azərbaycanın fəlsəfi-sosioloji doktrinasının sosial-mədəni və etno-coğrafi, siyasi cəhətlərini özündə birləşdirmişdir. O, qarşılıqlı dəstək, əməkdaşlıq və bərabərlik prinsipidir".

Lakin bu heç də o demək deyildi ki, Azərbaycan Xalq Cümhuriyyəti hökumət(lər)i azərbaycançılığı mütərəqqi millətçilik və vətənçilik tərkibindən mərhum etmişdi. Əksinə, Gəncə şəhərinin çarizm dövründəki adı ləğv edilərək onun əsl adı özünə qaytarılmışdı. Eləcə də bəzi yer adlarına düzəlişlər edildi. Şəhər və yer adlarının özünə qaytarılmasının xüsusi əhəmiyyəti vardı.

Azərbaycançılığın inkişafı ilə sıx bağlı olan digər mühüm tədbirlər də həyata keçirilmişdi. 1919-cu ildə Bakıda "Müsəlman Şərqini öyrənən cəmiyyət" təsis edilmişdi. Xalqımızın qədim tarixini araşdırmaq məqsədi ilə 1920-ci ilin əvvəllərində Maarif Nazirliyində arxeologiya şöbəsi təsis edilmişdi. Bakıda Azərbaycan Dövlət Teatrı fəaliyyətə başlamış, Teatr Xadimləri Cəmiyyəti, "Teatr üzrə Ədəbiyyat Komissiyası" kimi təşkilatlar yaradılmış, "Müsəlman mühərrir və ədiblər cəmiyyəti" tipli maarifi və milli mədəniyyəti təbliğ edən və yayan onlarla vətəndaş cəmiyyəti təsisatı fəaliyyətə başlamışdı. "Türk ocağı", "Nəşri-maarif", "Mədəni-maarif" kimi cəmiyyətlərin işi vüsət tapmışdı. Bakının baş memarı Zivər bəy Əhmədbəyovun təşəbbüsü ilə erməni vandallarının vəhşiliyi nəticəsində tamamilə dağıdılmış Şamaxı şəhərinin bərpa edilməsi məqsədi ilə "Yeni Şirvan cəmiyyəti"nin, həmçinin Bakının abadlaşdırılması üçün "Şəhər bağları cəmiyyəti"nin təsis olunması, "İslam abidələrini sevənlər və qoruyanlar cəmiyyəti"nin yaradılması vətəndaş cəmiyyətinin vətənçilik ruhunda kökləndiyini göstərən faktlardandır.

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması ictimai şüurun bütün sahələrində – elmdə, təhsildə, ədəbiyyatda, teatr, musiqi sahələrində milli ruhun güclənməsinə səbəb olmuşdu. Ədəbi həyatımızda Məhəmməd Hadi, Cəfər Cabbarlı, Əhməd Cavad, Əli Yusif, Almas İldırım, Əbdülvahab Yurdsevər, qardaş türk ədəbiyyatının nümayəndələri Rövşən Əşrəf, İbrahim Şakir, Arif Üryan və başqaları öz əsərləri ilə məhz azərbaycançılığın, milli şüurun formalaşması işində fəal iştirak edirdilər. Bu dövrdə şeirin mövzusu daha da konkretləşir, vətənin tərənnümü güclənir. Əlbəttə, bu illərin poeziyası eyni səviyyədə deyildir. Lakin ruh yüksəkliyi, vətənpərvərlik bu poeziyanın universal və başlıca cəhətidir.

Bu dövrün parlaq şairlərindən biri, sözsüz ki, Əhməd Cavad idi. Üzeyir Hacıbəyovun bəstələdiyi himnin – "Azərbaycan marşı"nın sözləri ona məxsus idi. Azərbaycan Xalq Cümhuriyyəti dövründə fəaliyyət göstərən "Yaşıl qələm" ədəbi cəmiyyəti də ədəbi-mədəni tədbirlər sahəsində xeyli iş görmüşdür: cəmiyyət dünya klassikasının ölməz nümunələrinin tərcümələri, nəşri ilə məşğul olmuş, milli mədəniyyətimizin təbliği üçün çalışmışdır. "Yaşıl qələm" öz tərkibində əksəriyyət etibarilə nisbətən gənc istedadlı ədəbi-ziyalı qüvvələri cəmləşdirmişdi ki, onlar da milli mədəniyyətimizin inkişafı üçün çalışanlarla çiyin-çiyinə verib fəaliyyət göstərirdilər.

Musiqi, publisistika və dramaturgiya sahələrində milli mədəniyyətimizin inkişafından danışarkən böyük bəstəkarımız Ü.Hacıbəyovun xidmətlərini ayrıca qeyd etmək lazımdır. O, milli hökumətdə gedən proseslərin fəal iştirakçısı idi. Hələ əvvəlki illərdən bir peşəkar jurnalist kimi dövri mətbuatımızda milli mədəniyyətimizin bu və digər sahələri haqqında məqalələr yazmış, "Tərəqqi", "Həqiqət, "Yeni İqbal" kimi qəzetlərin redaktoru olmuşdu. Lakin onun məhsuldar yaradıcılıq dövrü 1919-cu ildən 1920-ci ilə qədər Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin (qəzet Azərbaycan və rus dillərində nəşr olunurdu. Üzeyir bəy Azərbaycan dilində çıxan qəzetin redaksiyasına rəhbərlik edirdi – S.V.) redaktoru olduğu illərə düşür. Bu qəzetin səhifələrində milli hökumətin gördüyü işlər, xüsusən milli mədəniyyət məsələləri geniş işıqlandırılırdı. Qəzetin ətrafında milliyyətçi ruhlu parlaq yazarlar toplaşmışdılar. Bu illərdə C.Cabbarlının, S.Hüseynin, M.B.Məmmədzadənin, Əhməd Cəfəroğlunun, Hüseyn Bayqaranın, Əliabbas Müznibin əsərləri, şeir və məqalələri milli şüurun dirçəlişinə, milli özünüdərkin dərinləşməsinə yardım etmişdir.

M.Ə.Rəsulzadə mətbuat azadlığını milli mədəniyyətin inkişafı üçün mühüm şərtlərdən biri hesab edirdi. Məlumdur ki, milli hökumət meydana gələnə qədər çar Rusiyasında və onun tərkibinə daxil olan Azərbaycanda mətbuat azadlığı yox idi. Ana dilində yazıb-oxumaq olduqca çətin idi. Nəşr olunan qəzet və jurnallar ciddi senzura maneəsinə rast gəlirdi. Hələ 1907-ci ildə "Təkamül" qəzetində dərc etdirdiyi "Beş hürriyyət" adlı məqaləsində o, "hürriyyəti-kəlam" və "hürriyyəti-vicdan"ı milli mədəniyyətin inkişafına təkan verən prinsip kimi qiymətləndirirdi. Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dövründə parlamentdə mətbuat haqqında məcəllə qəbul olunmuşdu; bu, 200-ə yaxın qəzet və jurnalın nəşr olunmasına şərait yaratmışdı. M.Ə.Rəsulzadə başqa bir əsərində – milli hökumətin süqutundan dərhal sonra qələmə aldığı "Əsrimizin Siyavuşu"nda xatırlayırdı: "Hər kəs nə istəyirsə, söyləyər, oxuyar, yazardı. Millətin hər partiyasının özünəməxsus təşkilatı və qəzeti vardı. Bu qəzetlər əksərən hökuməti tənqid və mübahisələrlə məşğul olduqları halda, hökumət onlara qarşı böyük dözüm və səbir göstərirdi". Beləliklə, milli dövlətçiliyin qorunması və möhkəmlənməsi yolunda demokratik xətti hərəkət istiqaməti götürmüş Şərqdə ilk parlamentli respublika azərbaycançılıq ideologiyasının ictimai həyatın ən müxtəlif sferalarında yayılmasını özünün başlıca prinsipi səviyyəsində dərk edir və buna çalışırdı.